Allah satarkən, alarkən, borcunu istəyərkən insanlarla mülayim davranan kimsəyə rəhm etsin

Cabirdən - Allah ondan razı olsun - rəvayət edildiyinə görə, Allah Rəsulu - sallәllahu aleyhi va sәlləm - belə buyurmuşdur: "Allah satarkən, alarkən, borcunu istəyərkən insanlarla mülayim davranan kimsəyə rəhm etsin".

[Səhih] [Əl-Buxari rəvayət etdi]

Peyğəmbər - sallәllahu aleyhi va sәlləm - insanlarla alqı-satqı edərkən xoş əxlaq göstərən (satarkən asanlaşdıran), əli açıq və comərd olan hər kəsə mərhəmət olunması üçün dua etmişdir. Satıcı malı müştəriyə həqiqi qiymətindən baha satmaz və onunla gözəl əxlaqla rəftar edər. Bir şeyi satın aldığında da satıcıya qarşı mülayim, əli açıq və comərd olar. Malın qiymətini həddindən ziyadə düşürüb qiymətini azaltmaz. Borcludan borcunu istəyərkən onunla mülayim rəftar edər ,ona qarşı əli açıq və cömərd olar. Fəqir və yoxsul kimsələrə qarşı şiddətli olmaz. Əksinə borcunu onlardan şəfqətli və yumşaq bir şəkildə istəyər. Borcunu ödəməyə imkanı olmayan kimsəyə də möhlət verərdi.

http://sunnah.global/hadeeth/az/show/3716